tərcümə etdi:
Rəhmət Babacan

## Ayrılıq körpüsü

Tələsib yanımdan keçəcəkdir vaxt,
Ustad çever kimi tikir keçmişi.
Məni çox gözlədi keçiddə bir bəxt,
Bilməm ona necə çatacağımı.

Kirpiklərim uzun körpü kimidir,
Keçmək üçün axı tap dözüm, bərdaş.
O uzun körpüdən sən heç keçmədin,
Onun keçdi yalnız acı bir göz yaş.



# Mahliyaxan Umurzaqova

***1990-cı ildə Fərqanə rayonunun Mərgilan şəhərində anadan olub. Kəmaliddin Behzad Milli İncəsənət və Dizayn İnstitutunun tələbəsidir. "İstedadlar məktəbi" gənc rəssamların Respublika seminarı iştirakçısı. 2020-2021-ci ili Nəvai Dövlət Təqaüdünün qalibi. "Duyğuların alovu" adlı kitabi Özbəkistan Yazıçılar Birliyi tərəfindən nəşr edilmişdir.***

## Xoşbəxtlik işi...

İşıq üzür dağlar köksündən,
Oyanırlar həssas ağaclar.
Fırlanacaq o vaxt yerindən,
Qoynu boşalan o səbətlər.

Səhərdə sobanı yandırıb,
Anam nan pişirir eləcə.
Səbətlər qoynunu doldurur...
Dəyər tapır hər səhər belə.

Müdrəyən həyətə su səpib,
Oyadır tənbəl torpağını.
Mehr ilə öpüb üzündən,
Səhər oyadacaq kəndi də.

Günəş parlar qızıl şaç, təlli,
Ateşli və gözəl qanadda.
Yayılacaq şirin bir nəfəs,
Bəxt qoxusu gəlir həyatdan.

Türküstan.- 2022.-
25-31 yanvar.- S.15.